# Zəngəzur dəhlizi qlobal güclərin maraq dairəsindədir

**Cənubi Qafqaz regionunda geopolitik rəqabət artıq qarşıdurma mərhələsinə keçmək üzrədir. Belə ki, ABŞ və Qərbin bu regionda kifayət qədər fəallaşdığı müşahidə olunur. Xüsusilə də ABŞ Rusiyanın maraq dairəsində olan regional geopolitik, geoiqtisadi və geostrateji proseslərə birbaşa müdaxilə etməyə çalışır. Bu, Tramp administrasiyasının Cənubi Qafqazın Rusiya təsirindən tamamilə uzaqlaşdırılmasında maraqlı olduğunu göstərir. Bu dəyişikliklərdə Türkiyə, Rusiya və İran fəal rol almağa çalışır. Avropa İttifaqı və Çin Xalq Respublikasının da burada öz strateji maraqları var. ABŞ da son aylar təsirini artırmaq niyyətindədir.**




Bu baxımdan artıq Tramp administrasiyası Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanmasına dəstək mesajları da verməyə başlayıb. Buna paralel olaraq, ABŞ Cənubi Qafqazın gələcək taleyini təyin edəcək Zəngəzur dəhlizinə də xüsusi maraq göstərir. Bu isə regional geoiqtisadi layihədə Rusiyanın iştirak şansını bloklamağa cəhddir.

Qeyd edək ki, Zəngəzur dəhlizi Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirəcək strateji nəqliyyat-kommunikasiya xətti olaraq gündəmdədir. Ancaq Azərbaycan, Ermənistan və Rusiya arasında 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatda bu dəhlizin açılması nəzərdə tutulsa da, hələ də siyasi və texniki detallar sayəsində reallaşmayıb.

da fəallaşmasını öz maraqlarına qarşı real təhlükə kimi qiymətləndirirlər.

Təbii ki, hazırda cərəyan edən proseslər "ABŞ nəyə nail olmaq istəyir" sualını doğurur. Çünki ABŞ-ın Cənubi Qafqaz strategiyası son illərdə daha çox Rusiya və İranın regionda təsir mexanizmlərini zəiflətmək, eyni zamanda, Çinin "Bir Kəmər - Bir Yol" təşəbbüsünə qarşı alternativ nəqliyyat xətləri qurmaq məqsədi daşıyır. Bu baxımdan, Zəngəzur dəhlizi ABŞ üçün Türkiyə və Azərbaycan vasitəsilə Avrasiya ticarət yollarına birbaşa çıxış imkanları açır.

Həttə bununla bağlı Türkiyənin "Hürriyet" qəzetində "ABŞ niyə Zəngəzur layihəsində iştirak etməyə can

liyyat əlaqələrini blokdan çıxarmağı öhdəsinə götürüb.

Qəzet yazır ki, İrəvan bu gün hətta dəmir yolu şəbəkələrinə nəzarət kontekstində də Moskvanın iştirakını istəmir.

Məqalənin sonunda vurğulanır: "Ankaranın mövqeyi ondan ibarətdir ki, yeni nəqliyyat marşrutu bütün tərəflərin razılığı əsasında və onların maraqlarına uyğun olaraq açılmalıdır".

Qeyd edək ki, hazırda Ermənistan iki qəliz seçim arasında sıxışıb qalan duruma düşüb. Ona görə də rəsmi İrəvan hələlik tərəddüd içərisindədir. Belə ki, bir tərəfdən, ABŞ və Qərbin dəstəyi Ermənistanın Rusiya asılılığından çıxmaq cəhdlərinə yardım edə bilər. Digər tərəfdənsə, ABŞ kimi üçüncü bir ölkəyə dəhlizdə nəzarət hüququnun verilməsi Ermənistan üçün suverenlik və daxili siyasi sabitlik baxımından risk təşkil edir.



Rusiya məhz üçtərəfli Bəyanata istinadən bu dəhlizə nəzarət etmək istəyir və bölgədəki rolunu qorumaq üçün yeni təsir mexanizmi yaratmağa çalışır. İran bu dəhlizi özünün şimal nəqliyyat qovşaqlarına və Ermənistanla münasibətlərinə təhlükə kimi qiymətləndirir. ABŞ isə mövcud ziddiyyətli vəziyyətdən istifadə edərək, Cənubi Qafqazda təsir imkanlarını genişləndirmək niyyətindədir.

Bu arada ABŞ-ın Türkiyədəki səfiri Tomas Barrakın 100 il müddətinə dəhlizə nəzarət təklifi barədə danışması da neqativ məzmunlu reaksiyalara səbəb olub. Çünki beynəlxalq hüquqi konvensiyalara zidd ola biləcək belə uzunmüddətli razılaşmalar, xüsusilə də üçüncü ölkələrin suveren ərazilərində müəyyən çətin vəziyyətlərə gətirib çıxarır. Üstəlik, Ağ Evin təklifi həm də regional qonşularda - Rusiya və İranda ciddi narahatlıq doğurub. Bu dövlətlər ABŞ-ın region-

atır?" sərlövhəli məqalə də dərc olunub. Türkiyə nəşri ABŞ-ın Zəngəzur dəhlizində fəal marağı olduğunu xatırladaraq yazıb: "Ermənistanın baş naziri Nikol Paşinyan dəmir yolunu milliləşdirə və bununla da Rusiyanı yeni nəqliyyat marşrutundan tamamilə "çıxara" bilər". "Hürriyet" qəzeti bu barədə ötən həftə Nyu-Yorkda Vaşinqtonun "Zəngəzur dəhlizinin ermənilərə məxsus hissəsinin 32 kilometrini 100 il müddətinə icarəyə götürməyə" hazır olduğunu bəyan edən ABŞ-ın Türkiyədəki səfirinin bəyanatına istinadla xəbər verib.

Qəzet qeyd edib ki, "ABŞ səfirinin bəyanatı Paşinyanı ölkəni satmaqda ittiham edən Ermənistan müxalifətinin kəskin tənqidinə səbəb olub". Nəşr 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın mətnini də xatırladıb. Həmin sənədə görə, Ermənistan Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında Rusiya FTX-nin Sərhəd Xidmətinin nəzarətində olacaq nəq-

Zəngəzur dəhlizi ətrafında yaranmış vəziyyət bir daha sübut edir ki, Cənubi Qafqaz sadəcə üç dövlətin deyil, qlobal güclərin maraq dairəsindədir. ABŞ-ın bu regionda aktivləşməsi geostrateji qütbləşməni dərinləşdirə, geopolitik balansı dəyişə və yeni qarşıdurmalar üçün münbit şərait yarada bilər. Əgər ABŞ-ın Zəngəzur dəhlizi ilə bağlı təklifi real geopolitik gündəmdə ön plana keçirilərsə, Cənubi Qafqazın "qapılar"ının Rusiyanın üzünə həmişəlik bağlanması qaçılmaz olacaq.

Beləliklə, ABŞ-ın Zəngəzur dəhlizinə can atması sadəcə ticarət xəttinin deyil, Cənubi Qafqazda qapıların Rusiyanın üzünə bağlanması planıdır. Gələcəkdə bu, regionda güc balansını fundamental şəkildə dəyişdirə bilər. Əgər ABŞ-ın təklifi həyata keçərsə, Zəngəzur dəhlizi artıq Moskva üçün bağlanmış bir qapı olacaq.

**Esmira YAZKAN ASLANOVA,
"Respublika" qəzetinin
Türkiyə üzrə müxbiri.**